# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin yeni inzibati binası açılıb





Fevralın 19-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Qəbələ Rayon Şöbəsinin yeni tikilmiş inzibati binasının açılış mərasimi olub.

Açılış mərasimindən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Mərasimdə SHXÇDX-nin rəisi, general-leytenant Arzu Rəhimov çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin komandanlığı altında son illər ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində əldə edilən nəticələri diqqətə çatdırıb. Xidmət rəisi Qəbələ Rayon Şöbəsinin yeni inzibati binasının istifadəyə verilməsinin dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin növbəti təzahürü olduğunu vurğulayıb.

Mərasimdə Qəbələ Rayon icra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək, SHXÇDX-nin rayon şöbəsinin yeni inzibati binasının istifadəyə verilməsinin əməkdaşların fəaliyyətinə əlavə stimul yaradacağını deyib.



Məlumat verilib ki, SHXÇDX-nin Qəbələ Rayon Şöbəsinin 37 otağı, hərbi həkim komissiyası üçün iş kabinetləri və 2 iclas zalı olan üçmərtəbəli inzibati binasının ümumi sahəsi 2391 kvadratmetrdir. Müasir standartlara uyğun inşa edilən binanın bütün otaqları zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib.

Daha sonra binanın açılışını bildirən lent kəsilib və mərasim iştirakçıları binada yaradılan şəraitlə tanış olublar.

Müasir memarlıq üslubunda inşa edilən bina öz gözəlliyi ilə Qəbələ şəhərinə xüsusi yaraşıq verir.

**"Qəbələ"**

# Kiçik Pirəli kəndində səyyar görüş-qəbul keçirilib

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Kiçik Pirəli kənd sakinləri ilə görüş-qəbulu olmuşdur. Görüşdə rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri, hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə və digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.





RİH-nin başçısı görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələr barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Səyyar-görüş qəbulların yerlərdəki problemləri öyrənmək və həll etmək üçün səmərəli vasitə olduğunu bildirən rayon icra hakimiyyətinin başçısı digər kəndlərimiz kimi Kiçik Pirəlinin də dayanıqlı rabitə, təbii qaz və elektrik enerjisi ilə fasiləsiz təmin olunduğunu qeyd etmişdir. Vurğulanmışdır ki, görülən işlər əhalinin rifah halının yüksəlməsinə, yaşayış tərzinin rahatlığına imkan yaratmışdır.

Sonra kənd sakinləri dinlənilmişdir.

Çıxış edənlərdən Elşan Abdullayev, Ehtiram Mustafayev və başqaları rayonumuzda və Kiçik Pirəli kəndində hayata keçirlən abadlıq-quruculuq işlərinə görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Onlar kənddə yeni transformatorun quraşdırılmasına və yeni yaşayış massivinə qaz xəttinin çəkilməsinə ehtiyac olduğunu bildirmişlər.

Görüş-qəbulda qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilmiş, icrası nəzarətə götürülmüşdür.

**"Qəbələ"**

# Qəbələdə turizmin bugünkü mənzərəsi

Rayon statistika idarəsinin məlumatına görə Yeni ilin ilk ayında rayonumuzda 16 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərib. Bir ay müddətində rayona 15707 turist gəlib ki, onların 9905 nəfəri və ya 63,1 faizi yerli, 5802 nəfəri və ya 39 faizi xarici ölkə vətəndaşları olub. Bu ilin yanvarında rayona gələn turistlərin sayı ötən ilin eyni ayı ilə müqayisədə 4619 nəfər və ya 41,6 faiz çoxdur.

Qəbələyə gələn əcnəbi turistlər arasında 1837 nəfərlə Səudiyyə Ərəbistanı vətəndaşları üstünlük təşkil edib. Birləşmiş Ərəb Əmirliklərindən 1300 nəfər, Küveytdən 295 nəfər, Bəhreyndən 107 nəfər, Omandan 253 nəfər, Rusiyadan 109 nəfər, Hindistandan 327 nəfər turist gəlib. Əcnəbi turistlərin 1574 nəfəri digər ölkələrdəndir.

Yanvar ayında turizm obyektlərində 1013 işçi çalışıb. Onlardan 211 nəfəri qadın, 203 nəfəri turizm və otelçilik üzrə təhsilli mütəxəssislər olub.

**"Qəbələ"**

# Qış məktəbi başa çatıb

Azərbaycan İlahiyyat İnstitutunun Qəbələ rayonununda təşkil etdiyi "Din, mədəniyyət və cəmiyyət" mövzusunda qış məktəbi başa çatıb.

Qış məktəbi layihəsinin həyata keçirilməsində əsas məqsəd tələbələrdə vətənpərvərlik ruhunun gücləndirilməsi, onların intellektual səviyyəsinin, dünyagörüşünün zənginləşdirilməsi və layiqli vətəndaş olaraq yetişməsinə töhfə vermək olub.

Qeyd edək ki, layihə çərçivəsində tələbələr üçün müxtəlif seminar və ziyarətlər, film nümayişləri, əyləncəli oyunlar təşkil edilib.

**"Qəbələ"**